Adımız məfkurəmizdir

31 iyul-9 avqust 2021-ci il

Türküstan

www.turkustan.info



Xəyalə Zərrabqızı





# Türk ədəbiyyatı dərgisi: Əhməd Kabaklıdan İmdat Avşara...

əvvəli ötən sayımızda

*Bu mərtəbədən yanaşanda dəyərli İmdat Avşar gördüyü işlərin ruhani miqyasına və mənəvi çəkisinə görə özündən sonrakı ədəbi nəslə böyük Əhməd Kabaklının milli və mənəvi irsini ötürmə məqamındadır...*

*İmdat Avşar 1967-ci ildə Anadoluda Kırşəhirə bağlı Kamanda dünyaya gəlmiş, ilk və orta təhsilini də elə Kamanda almışdır. 1989-cu ildə Qazi Universiteti Kırşəhir Təhsil Texnikumunu bitirərək əmək fəaliyyətinə başlamışdır. Bir müddət Malatya və Ərzurum bölgələrində müəllimlik etdikdən sonra 1993-1997-ci illər arasında təkrar təhsil həyatına dönmüşdür. İnönü Universiteti Təhsil fakültəsindən Təhsili İdarəetmə və Nəzarət şöbəsindən məzun olduqdan sonra 1999-cu ildə Fırat Universiteti Sosial Elmlər İnstitutunda ali elmi dərəcəsini tamamlayaraq İğdırda təhsil müfəttişi olaraq çalışmağa başlamışdır. Daha sonra Kayseridə təhsil müfəttişi olaraq görəvini davam etdirmişdir. 2017-ci ildə Türk ədəbiyyatı Vəqfinin başqanı Sərhat bəy Kabaklının və Bəxtiyar Aslanın təşəbbüsü ilə İstanbula dəvət olunan İmdat Avşar həmin tarixdən bu günədək həyat və yaradıcılıq yollarını Türk Ədəbiyyatı Vəqfi və Türk ədəbiyyatı dərgisi ilə bağlamışdır.*

Ədəbiyyat dünyasına İmdat Avşar imzası "Qardaş qələmlər", "Hərfənə", "Koroğlu", "Sancaqdar", "Göybayraq", "Bizim külliyə", "Bərcəstə", "Şəhriyar", "Kün ədəbiyyat", "Künbətaltı", "Aqora", "Çınqı", "Alatoo" dərgilərindən artıq çoxdan tanış və doğmadır. Ədibin Türk dilimizin müxtəlif ləhcələrinə uyğunlaşdırılan şeir və hekayələri Kərkükdə "Qardaşlıq", Bağdadda "Bayraq", Azərbaycanda "Ulduz", "Azərbaycan", "Literaturnıy Azərbaycan" jurnalları, Qırğızıstanda "Çınqı" və "Alatoo" dərgilərində, Kırımda "Ümid karvanı", "Nənkəcan", Başqırdıstanda "Ağidil", Kosovada "Türkcəm", Kuzey Kıbrısda "Turnalar" kimi dərgilərdə yayımlanmışdır.

*İmdat Avşar Türkiyə Yazarlar Birliyinin, Azərbaycan Yazarlar Birliyinin, Dünya Gənc Türk Yazarlar Birliyinin üzvüdür.*

*İmdat bəyin çağdaş və klassik ədəbi ənənələrə söykənən zəngin nəsr yaradıcılığı vardır ki, orijinal yazı tərzi, qeyri-adi ifadə forması, şeir kimi bənzərsiz təhkiyə yaratmaq qabiliyyəti, əsərlərinə məxsus psixoloji – fəlsəfi dərinlik və mövzu rəngarəngliyinin sirayət etdiyi 'Süsənləri solan bozqır" (2009), 'Soyuq röya (2012), "Göyərçin sevdası" (2021) kitabları ilə bütün Türk dünyasında böyük oxucu auditoriyasının rəğbətini və sevgisini qazanmışdır.*

"Gecənin susqun nəğməsi" şeir kitabının tərcüməsinə görə 2010-cu ildə Beynəlxalq Rəsul Rza mükafatına, "Şahnaz xanım kolleci" hekayəsinə görə Mədəniyyət Nazirliyi tərəfindən Abbas Sayar hekayə yarışmasında birincilik ödülünə, Yeni Üfüqlər dərnəyi Türk mədəniyyətinə xidmət ödülünə, Yunus Əmrənin xatirəsinə həsr olunmuş hekayə yarışmasında "Soyuq röya" hekayəsi ilə birincilik ödülünə, "Aydınlıq gecələr" adlı hekayələr toplusu ilə Türk ləhcələri arasında ən yaxşı hekayə tərcüməsi ödülünə, Bəxtiyar Vahabzadə adına Türk dünyasına xidmət Beynəlxalq ədəbiyyat ödülünə, "Övliya Çələbinin izində Azərbaycan" adlı kitabıyla Yurt dışında Azərbaycanı ən çox tanıdan əsər ödülünə, "Soyuq röya" kitabı ilə İLESAM-ın ən yaxşı hekayə ödülünə, Beynəlxalq Mahmud Kaşğarlı fondu tərəfindən Kaşğarlı Mahmud mükafatına və Vektor Elm Akademiyasının "Şahmar Əkbərzadə" adına mükafatına, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun "Azərbaycan ədəbiyyatının dostu", Azərbaycan Yazıçılar Birliyinin "Nizami" mükafatına, Qazaxıstan dövləti tərəfindən Qazax xanlığının 550 il medalına, TÜRKSAV tərəfindən Türk Dünyasına Hizmət Təşfiq ödülünə, TÜRKSOY tərəfindən Çingiz Aytmatov mükafatına layiq görülmüşdür.




Təltif olunduğu mükafatlar sırasında Azərbaycanla bağlı ödüllərin sayının çoxluğu İmdat bəyin yaradıcılığının böyük bir hissəsini Azərbaycan ədəbiyyatına həsr etməsindən qaynaqlanır. Mirzə Fətəlidən, Mirzə Cəlildən üzübəri tərcümə edə-edə gəldiyi və bu gün sevə-sevə təbliğ etdiyi Azərbaycan ədəbiyyatının ən doğması, fədakar dostu İmdat Avşarın yaxından təşəbbüsü ilə bu il həm də "Türk ədəbiyyatı" dərgisinin bir sayı Nizami Gəncəviyə həsr olunacaqdır. Bütün bu məqamlar "dildə və düşüncədə bir olan" iki qardaş dövlətin bütövlüyü ideyasının mədəni istiqamətdə daha aydın təzahürünü göstərməkdədir.

Maraqlı və diqqətçəkən bir məqamdır ki, Türkiyədə və türkcə qonuşan qardaş ədəbiyyatlarda məhz Azərbaycana həsr olunan xüsusi buraxılışların, demək olar ki, hamısı İmdat Avşarın təşəbbüsü və redaktorluğu ilə işıq üzü görmüşdür. "Türk ədəbiyyatı" dərgisinin xalq yazıçısı Anara, akademik İsa Həbibbəyliyə, xalq şairi Sabir Rüstəmxanlıya, xalq yazıçısı Kamal Abdullaya, qırğız xalq yazıçısı Çingiz Aytmatova, "Koroğlu" dərgisinin Sabir Rüstəmxanlıya və Əjdər Ola, "Çınqı" dərgisinin Nigar Rəfibəyliyə və Məmməd İsmayıla, Qardaş qələmlər" jurnalının Rəsul Rza, Anar, Çingiz Dağçı, Çingiz Aytmatova həsr olunan xüsusi buraxılışlarının və hər ilin fevralında "Türk ədəbiyyatı"nın Xocalı həqiqətlərini dünyaya çatdıran özəl sayının işıq üzü görməsində məhz İmdat bəyin baş redaktor kimi müstəsna xidmətləri olmuşdur.

Bu il dərginin ötən ay - may buraxılışı Türk dünyasının millətçi yazarlarından, xanım mücahidlərindən olan Əminə İşınsunun əziz xatirəsinə ithaf olunmuşdur. Çağdaş Türkiyə ədəbiyyatının görkəmli simalarından olan Əminə xanım "Sancı", "Çiçəklər büyür", "Cumhuriyyət türküsü", "Nisan yağmuru", "Bir mən vardır məndə məndən içəri", "Kiçik dünya", "Əzab torpaqları", "Dustaq", "Qaf dağının ardında", "Atlı qarışqa", "Alparslan","Hacı Bayram", "Hacı Bektaş Vəli" və s. kimi dərin məzmunlu romanların, bir çox dram əsərlərinin müəllifidir. İnsanın psixoloji yaşantılarını, qadınların məhbəs həyatını, Türk təsəvvüf tarixinin zirvə şəxsiyyətlərinin ideallarını bənzərsiz üslubda əsərlərində əks etdirən yazarın həyat və yaradıcılıq yoluna həsr olunmuş dərginin bu sayı həm də Türk dünyasının milli düşüncəli gənc aydınlarından olan İmdat Avşarın ilk baş redaktor kimi imzasının təsdiqidir.

Düşünürəm ki, bu sadəcə, İmdat Avşara həvalə olunan dərgi redaktorluğu deyil...

Bu, Türk dünyasının böyük mütəfəkkir ziyalılarından olan Əhməd Kabaklının başladığı yolun, körpünün mənəvi miraslığının İmdat Avşara ötürülməsidir, estafetdir...

Bu, sələflərinin başladığı Haqq işinə xələf olaraq İmdat Avşarın verəcəyi mənəvi töhfəyə inamın nəticəsidir...

Belə bir məsuliyyətli işin İmdat Avşara həvalə olunması İmdat bəyin sadəcə qələminə və ya ədəbi nüfuzuna olan rəğbətdən qaynaqlanmır, bu həm də, Onun paradiqmatik düşüncə tərzinə, milli və bəşəri məsələlərə yanaşma özəlliyinə, dünyaya və xüsusən Türk dünyasına baxışına və obyektivliyinə inamın bəlli bir təzahürüdür.

Qələm Vicdandır!

Qələm tarixi və ədəbi məsuliyyətdir!

Qələm milli özünüdərkin və mənlik şüurunun ifadəsidir!

*Bu gün bütün ruhuyla, varlığıyla qələmə sarılıb Haqqın keşiyində və əlahəzrət Sözün hizmətində dayanan, Ədəbiyyatımızın fədakar hamisi, Ruhumuzun könül dostu İmdat Avşar bu xidmətləriylə həm də böyük Türk dünyasının Əjdərha daşı, idraki sütunu olan Əhməd Kabaklının mənəvi varisi kimi müqəddəs bir yola çıxıb. Mənim düşüncəmə görə, 'modernləşdikcə', 'kürəsəlləşdikcə' dəyərləri itən bir mühitin ortasında öz mənəvi dünyasını yaradıb 5-10 qələm dostunu başına toplayıb qəzet və ya dərgi nəşrinə çaba göstərən, dolayısıyla söz üçün savaş verən adamların fədakarlığı Kürşadın 40 igidi ilə qaldırdığı üsyan bərabərindədir...*

*Fikirlərimi dəyərli baş redaktorun öz sözləriylə yekunlaşdırmaq istəyirəm. Söhbətlərimizin birində İmdat bəy demişdi ki: 'Ədəbiyyatla və sənətlə edilən mücadilə hərbi və siyasi mücadilədən daha dərin və ciddi izlər qoymaqdadır. Və biz ədəbi mücadiləmizi reallaşdıra bildiyimiz qədər daha böyük zəfərlər qazanmış olacağıq!"*

*Ədəbiyyatımızın və Ruhumuzun könül dostu əziz İmdat Avşarın baş redaktorluq fəaliyyətini ürəkdən qutlayır, yürüdüyü böyük ədəbiyyat yolunda başarılar və möhkəm can sağlığı diləyirəm!*

> *İmdat Avşar 1967-ci ildə Anadoluda Kırşəhirə bağlı Kamanda dünyaya gəlmiş, ilk və orta təhsilini də elə Kamanda almışdır. 1989-cu ildə Qazi Universiteti Kırşəhir Təhsil Texnikumunu bitirərək əmək fəaliyyətinə başlamışdır. Bir müddət Malatya və Ərzurum bölgələrində müəllimlik etdikdən sonra 1993-1997-ci illər arasında təkrar təhsil həyatına dönmüşdür. İnönü Universiteti Təhsil fakültəsindən Təhsili İdarəetmə və Nəzarət şöbəsindən məzun olduqdan sonra 1999-cu ildə Fırat Universiteti Sosial Elmlər İnstitutunda ali elmi dərəcəsini tamamlayaraq İğdırda təhsil müfəttişi olaraq çalışmağa başlamışdır*